# 1995-ci ilin mart hadisələri zamanı ulu öndər Heydər Əliyev böyük müdriklik və siyasi iradə nümayiş etdirərək dövlət çevrilişinə cəhdin qarşısını aldı

***❒ Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra müxtəlif dövrlərdə dövlətçiliyimizə, müstəqilliyimizə qarşı qəsdlər olub. Hətta bu qəsdlər zərərli bir ənənə kimi satqın və xəyanətkarların rəhbərlik etdiyi bir çox siyasi və hərbi qüvvələrin vərdişinə çevrilmişdi. Məhz Heydər Əliyev qətiyyəti, qüdrəti və müdrikliyi bu bəd niyyətlərdən əl çəkməyənlərə tarixi bir dərs verdi.***

...1995-ci ilin mart hadisələrindən 22 il keçir. Ancaq hər il xalqımız Novruz bayramını böyük təntənə ilə qeyd etməyə hazırlaşanda istər-istəməz bu hadisələr gözlərimiz önündə canlanır. Biz həmin tarixi 1994-cü ildə də yaşamışdıq. Mart hadisələri 1994-cü ilin oktyabr ayındakı dövlət çevrilişinə cəhdin davamı idi. Həmin il Daxili İşlər Nazirliyinin tərkibindəki Xüsusi Təyinatlı Polis Dəstəsinin üzvləri ölkəni vətəndaş müharibəsinə sürükləyir, hakimiyyəti silah gücünə ələ keçirmək istəyirdilər. Lakin “iqtidar-xalq” birliyi, ulu öndər Heydər Əliyevin qətiyyəti, dövlət idarəçiliyindəki zəngin təcrübəsi və Vətənə, millətə hədsiz məhəbbəti ikinci dəfə dövlət çevrilişinə cəhdin qarşısını aldı, müstəqilliyimizi əbədiləşdirdi.

1993-cü ilin ortalarından etibarən ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə sabitliyin təmin olunmasına baxmayaraq, hakimiyyət hərisliyində olan bəzi dairələr, necə deyərlər, ipə-sapa yatmaq istəmir, min hiylə-məkrlə respublikaya rəhbərlik etməyə can atırdılar. 1994-cü ilin oktyabr hadisələrindən sonra (xatırladaq ki, həmin vaxt da dövlət çevrilişinə cəhd olunmuşdu – red.) Surət Hüseynov və onun xarici ölkələrdəki havadarları öz məkrli niyyətlərindən hələ də əl çəkməmişdilər. Bu hadisələrdən bir il keçməmiş, üstəlik, onlara dəstək verən cinayətkar qruplar da tapıldı. Bəzi dairələrin əlində alətə çevrilmiş Mahir və Rövşən Cavadov qardaşlarının Xüsusi Təyinatlı Polis Dəstəsindən istifadə edərək müxtəlif cinayətlər törətməsi, dövlət qurumlarına hücumlar təşkil etmələri həm Surət Hüseynovun, həm də Cavadov qardaşlarının eyni mərkəzdən idarə olunduğundan xəbər verirdi. Eyni ssenari əsasında baş vermiş bu hadisələri təşkil edənlərin əsas məqsədi hakimiyyəti ələ keçirmək və xaricdəki düşmən qüvvələrin planlarını gerçəkləşdirmək idi.

1994-cü ilin oktyabr hadisələrindən sonra növbəti dövlət çevrilişi planı 1995-ci il martın 13-də Qazax şəhərində həyata keçirilməyə başlandı. DİN-in nəzdindəki XTPD-nin Qazaxda yerləşən 8-ci rotasının əməkdaşları, Müdafiə Nazirliyinin hərbi hissələrinin fərarilik etmiş hərbi qulluqçuları və mülki şəxslər müxtəlif markalı odlu silahlar, döyüş sursatı ilə silahlanmış vəziyyətdə, hərbi texnikadan istifadə etməklə Qazax rayon polis şöbəsinin, icra hakimiyyətinin binalarını, rabitə qovşağını zəbt etdilər. Bundan sonra cinayətkar dəstə Ağstafa şəhərində də həmin hərəkətləri davam etdirdi. Dövlət çevrilişinə rəhbərlik edən Rövşən Cavadov birbaşa Daxili İşlər Nazirliyinin nəzdində olan XTPD-nin bazasına gedərək, oradan hakimiyyətə ultimatumlar verdi. Onun və rəhbərlik etdiyi qeyri-qanuni silahlı dəstənin qarşıya qoyduğu əsas vəzifə nə yolla olursa-olsun, Azərbaycan Prezidentini ya fiziki cəhətdən məhv etmək, ya da həbs etmək, Ali Soveti, Azərbaycan Milli Televiziyasını və Daxili İşlər Nazirliyini tutmaq idi. Bu xəyanətkar niyyətin necə həyata keçiriləcəyi, kimlər tərəfindən icra ediləcəyi də artıq planlaşdırılmışdı.

Qanunazidd əməllər törətməklə ad çıxarmış quldur dəstəsinə rəhbərlik edən Rövşən Cavadov qanuni hakimiyyəti silah gücünə devirəcəyini gizlətmirdi. O, müxtəlif bəyanatlar verərək, hakimiyyətə hədə-qorxu gəlir, heç bir əsas olmadan istefa vermələrini tələb edirdi. Onun verdiyi bəyanatlara diqqət yetirin: “Bunlar haradan qüvvə gətirsələr də, mümkün deyil. Bunlar bizimlə bacaran deyillər”, “...Necə istəyirsiniz elə edin. Mən sözümü dedim... vətəndaş müharibəsi, dünya müharibəsi, necə istəyirsiniz, bunu adlandırın. Əgər onlar getməsələr, istefa verməsələr, biz onları zorla devirəcəyik”. “Biz hakimiyyətə gələcəyik. Ölkə rəhbərliyində mənim yerim isə Dövlət Şurası yaradıldıqdan sonra kollegial surətdə müəyyənləşdiriləcək”.

Göründüyü kimi, Rövşən Cavadov silah gücünə, günahsız insanları qətlə yetirmək, onların qanı üstündən hakimiyyətə gəlmək niyyətini gizlətmirdi. Belə xəyanətkar və satqınlarda, vəzifədən ötrü hər şeyi qurban verməyə hazır olan ünsürlərdə milli təəssübkeşlik, vətənpərvərlik hissləri, xalqına, dövlətinə qarşı heç vaxt məhəbbət olmur. Həmin dövrdə Azərbaycanın müstəqilliyini, dünyaya inteqrasiyasını gözü götürməyən antiazərbaycan qüvvələrə Cavadov qardaşları kimi xəyanətkarlar hava-su kimi lazım idi. Antiazərbaycan qüvvələr çalışırdılar ki, respublikada hakimiyyətə siyasi cəhətdən səbatsız, milli təəssübkeşliyi olmayan və idarəetmədə naşı adamları gətirsinlər, sonradan isə öz çirkin niyyətlərini asanlıqla həyata keçirə bilsinlər.

Mərd oğul və qızlarımızın qanı bahasına qazanılmış müstəqilliyimiz yenidən təhlükə altına düşmüşdü. Hərc-mərclikdən, özbaşınalıqdan yaxasını yenicə qurtaran ölkə təzədən fəlakətlə üz-üzə qalmışdı. Bu, Heydər Əliyevin siyasi iradəsi və müdrikliyi sayəsində getdikcə möhkəmlənən dövlət müstəqilliyimizə xarici düşmənlərin himayədarlığı ilə milli dönüklərimizin yeni qəsd xülyası idi.

Hamı elə düşünürdü ki, ulu öndər Heydər Əliyevin humanist addımından, milli həmrəyliyə, milli birliyə çağırışından sonra Xüsusi Təyinatlı Polis Dəstəsi, Cavadov qardaşları öz cinayətkar əməllərindən əl çəkəcək, müstəqil dövlətçiliyimizə arxadan zərbə vurmayacaqlar. Amma belə olmadı. Ayrı-ayrı müxalifət qüvvələrindən, xarici kəşfiyyat orqanlarından hərbi və siyasi dəstək alan Cavadov qardaşları hakimiyyəti devirmək, bir çox ictimai-siyasi xadimləri qətlə yetirmək niyyətlərini gizlətmədilər. Onların bu hərəkəti dövlətə açıq-açığına meydan oxumaq, hakimiyyəti zor gücünə, silah gücünə mənimsəmək cəhdi idi.

Ulu öndər Heydər Əliyev dəfələrlə Cavadov qardaşlarını, onların rəhbərlik etdikləri qeyri-qanuni silahlı birləşmələrin üzvlərini təmkinli olmağa, qan tökməməyə, silahlı qarşıdurmaya getməməyə çağırsa da, onlar hakimiyyəti ələ almaq inadından əl çəkmədilər. Hətta, Heydər Əliyev Cavadov qardaşlarının ataları Bəxtiyar Cavadovla söhbət aparıb oğlanlarını bu yoldan çəkindirmək üçün ağsaqqal tövsiyəsi verməsini demişdir. Lakin quldur dəstəsinin başçıları ağsaqqal atalarını da saya salmadılar. Ümummilli lider martın 15-də Azərbaycan televiziya və radiosu ilə xalqa müraciət etdi. Dövlətçiliyin və müstəqilliyin əleyhinə yönəlmiş bu qəsdin mahiyyətini açıb göstərdi. Təsir altına düşmüş adamları düzgün yola çağırdı. Onların təhlükəsizliyinə təminat veriləcəyini vəd etdi: “Şübhəsiz ki, nə qədər qan tökülübsə, nə qədər cinayət ediblərsə də, mən bu gərginliyin davam etməsinin tərəfdarı deyiləm. Əksinə, mən tələb edirəm ki, onlar bu cinayət əməllərindən əl çəksinlər...

...Mən hər bir vətəndaşın hüququnun keşiyindəyəm və hər bir vətəndaşa qayğı göstərməliyəm. Xalq mənə etimad göstərdiyinə görə mən bu vəzifəni öhdəmə götürmüşəm. Bu mənim borcumdur və bu borcu yerinə yetirmək üçün mən hər şeyə gedirəm. Ona görə də əgər bu gün də onlar çirkin əməllərindən əl çəksələr, silahları yerə qoysalar, şübhəsiz ki, cinayətkarların bir qismini bağışlayacağam. Bunları da bağışlayacağam. Yəni mən, – baxmayaraq ki, çox kəskin vəziyyət yaranıb, ictimaiyyət Rövşən Cavadova və onun ətrafında olan o quldurlara çox nifrət edir – yenə də bu addımı atıram”.

Bütün bunlara baxmayaraq, Cavadov qardaşları öz çirkin niyyətlərindən əl çəkmir, onların başçılıq etdikləri quldur dəstəsinin üzvləri polis idarəsinə basqın edir, mağazalardan zorla əşyalar götürür, dinc əhalini qorxu altında saxlayırdılar. Xalq isə bu cinayətkarların əlindən cana doymuşdu.

Daim öz xalqına arxalanan Heydər Əliyevin cəsarəti, qətiyyəti ilə, nəhayət bu quldur dəstəsi darmadağın edildi. Onlar ölkəmizin müstəqilliyinə qənim kəsilə, hakimiyyəti silah gücünə ələ keçirə bilmədilər. Azərbaycan dövlətçiliyinin varlığı əleyhinə yönəlmiş dövlət çevrilişinə cəhdin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alındı. Azərbaycanda zor gücünə, silahlı dəstələrdən istifadə etməklə hakimiyyətə gəlmək kimi bədnam ənənəyə son qoyuldu. Xalqın ulu öndərə, dövlətə, hakimiyyət orqanlarına inamı, etibarı daha da artdı.

Həmin vaxtdan başlayaraq müstəqilliyimizin əbədiləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı. Bu gün Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulmaqdadır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasətin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın dünya birliyinə inteqrasiyasını daha da sürətləndirib. Ölkəmizin müstəqil dövlət kimi beynəlxalq aləmdəki əlaqələri getdikcə möhkəmlənir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***